Xalq qəzeti 26 may 2023-cü il, cümə S.11.

# "Heydər Əliyev və musiqi mədəniyyəti"

**Azərbaycan Bəstəkarlar İttifaqında (ABİ) "Heydər Əliyev ili" çərçivəsində tədbirlər silsiləsindən qurumun ərsəyə gətirdiyi "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabının təqdimat mərasimi keçirilib.**



Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızının tərtibçi-müəllifi olduğu kitabın məsləhətçi və rəyçisi ABİ sədri, Xalq artisti, AMEA-nın müxbir üzvü, professor Firəngiz Əlizadə Heydər Əliyevlə bağlı gənclik illərinin xatirələrini dilə gətirib. Kulturoloq, tarix elmləri doktoru, professor Fuad Məmmədov "Heydər Əliyev və Azərbaycan mədəniyyəti", sənətşünaslıq üzrə elmlər doktoru, dosent Leyla Zöhrabova "Heydər Əliyev və musiqi mədəniyyəti" kitabı haqqında", sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Jalə Qulamova "Heydər Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqı", L.və M.Rostropoviçlər ev-muzeyinin icraçı rəhbəri Günay Əliyeva "Siyasəti və mədəniyyəti birləşdirən iki dahi şəxsiyyət: Heydər Əliyev və Mstislav Rostropoviç" mövzularında məruzə ediblər. Görkəmli dövlət xadimi, müdrik siyasətçi Heydər Əliyevin universal insan, şəxsiyyət kimi elmə, mədəniyyətə, o cümlədən musiqiyə verdiyi dəyərdən, göstərdiyi diqqət və qayğıdan ətraflı danışıblar.

Mərasimdə maraqlı musiqi parçaları, video və foto slaydlar bir-birini əvəz edib. "Qafqaz media" ictimai birliyi Səadət Təhmirazqızını "Heydər zirvəsi – 100" diplomu və medalı ilə mükafatlandırıb. Sonda Firəngiz Əlizadənin öz sözlərinə bəstələdiyi, Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və Azərbaycan Dövlət Xor Kapellasının ifa etdiyi "Zəfər marşı"nın lent yazısı səslənib.

**Əli NƏCƏFXANLI,**
**"Xalq qəzeti"**